# Sən məni atmağa tələsmə hələ



İçim qan ağlayır, gülsə də çölüm,
Get-gedə haqlayır amansız ölüm.
Nə qədər gec deyil, barışaq gülüm,
Sən məni atmağa tələsmə hələ.

Sənsiz buz kimidir bu daş dörd divar,
Sanki bu otağa yağıb yağış-qar.
Ruhum da, qəlbim də titrəyir a yar,
Sən məni atmağa tələsmə hələ.

Sənə yalvarıram incitmə məni,
Salma saçlarıma gəl vaxtsız dəni.
Ay mənim ömrümün gülü-gülşəni,
Sən məni atmağa tələsmə hələ.

Gəl atma sən məni bir kölə kimi,
Yüklənir üstümə dərd şələ kimi,
Yunisəm, ömrümdə son ilə kimi,
Sən məni atmağa tələsmə hələ.

*Yunis Qaraxanov*